# KADINLARIN KADERİNDE "PERESTROİKA" İZLERİ
“YENİDƏNQURMA”NIN QADIN TALELƏRİNDƏKİ İZLƏRİ

**İradə ZƏRQAN**
Dos.Dr. AMEA Fəlsəfə və Sosialogiya İnstitututunun Etika şöbəsinin aparıcı elmi işçisi

## ÖZET

Nobel Barış Ödülü alan Mihail Sergeeviç Gorbaçov’un “Glasnost” (Açıklık) ve “Perestroika” (Yeniden Yapılanma) adı verilen reformlar politikası, SSCB'yi kapalı toplumdan açık topluma taşımanın bir yolu olarak ilerici görünse de, aslında anarşiye ve radikalizme meydan okudu-Sovyet sonrası alanda, özellikle Azerbaycan'da barış ve güvenliği sona erdirdi. 70 yıl aralığında kardeşce yaşayan milletler arasında kin, ayrımcılık ve aşırılık tohumları filizlendi. 50.000 Ahıska Türkü ve 250.000 Azerbaycan Türkü zorla evlerinden çıkarıldı, öldürüldü, yakıldı ve yağmalandı. “Yeniden yapılanma” politikası toplumun daha duyarlı kısmı olan kadınların hayatlarını kararttı, gelecek nesiller için ciddi, sosyal ve psikolojik travmalar yarattı. Gorbaçov'un başarısız faaliyetleri ülkenin yıkımı ile bitmedi, nesilleri dağıttı, aileleri başsız bıraktı, kadınları perişan ve hasta etti, çocukların hayallerini öldürdü. Yeniden yapılanma" sonucunda hayatları mahvolan kadınlar arasında Gorbaçovun kendi eşi ve en yakın destekçisi Raisa Gorbacheva da vardı.

İnsanların manevi açlığı, maddi yoksunluktan daha ciddi sonuçlara yol açmaktadır. Hükümetler ve devletler anne ve kadın haklarına çok dikkat etmelidir. Kadınların üzüldüğü, haklarının çiğnendiği, yüzlerinin gülmediği toplumlar sosyo-psikolojik sorunların kaynağı olmaktadır. Bu durumda sağlıklı bir nesil yetiştirmek çok zor. Toplumun canlanması için amaç ve hedefler, hukukun üstünlüğü ve sosyal adalet anlayışı arasında bir denge beklemek gerekir. Barışçıl koşullar, aile ve devlet yapılarında milli ve manevi değerlerin korunması, kanunların ve sorumlulukların birliği kadına yönelik tutumları düzenleyen başlıca unsurlardır.

**Anahtar Kelimeler:** Gorbaçov, Perestroyka, Karabağ, işgal, Raisa, Maleyka

# TRACES OF "PERESTROIKA" IN THE FATE OF WOMEN

## ABSTRACT

Although Mikhail Gorbachev's Perestroika seemed progressive as a way for the USSR to move from a closed to an open society, it challenged anarchy and radicalism, ending peace and security in the post-Soviet space, especially in Azerbaijan. The seeds of hatred, discrimination and extremism have sprouted among peoples who have lived in brotherhood for 70 years. Since 1988, 50,000 Meskhetian Turks and 250,000 Azeri Turks have been forcibly evicted from their homes, killed, burned and plundered. "Perestroika" destroyed the lives of women and inflicted severe social and psychological trauma on future generations. Gorbachev's unsuccessful activities not only destroyed the country, but also destroyed generations, decapitated families, made women unhappy and sick, destroyed childhood dreams and aspiration. Among the women whose lives were destroyed because of "Perestroika" was Gorbachev's own wife, his closest supporter, Raisa Gorbachev.

People's spiritual hunger leads to more serious consequences than material deprivation. Governments and states must pay close attention to the rights of mothers and women. Societies where women are sad, their rights are violated and their faces are not smiling are a source of socio-psychological problems. In this case, it is very difficult to raise a healthy generation. For the revival of society, it is necessary to expect a balance between an understanding of goals and objectives, the rule of law and social justice. Peaceful conditions, the protection of national and moral values in the family and government structures, the unity of laws and responsibilities are the main factors regulating attitudes towards women.

**Key words:** Gorbachev, Perestroika, Karabakh, occupation, Raisa, Maleyka

## СЛЕДЫ «ПЕРЕСТРОЙКИ» В СУДЬБЕ ЖЕНЩИН

### РЕЗЮМЕ

Хотя политика реформ лауреата Нобелевской премии мира Михаила Сергеевича Горбачева под названием «Гласность» и «Перестройка» казалась прогрессивной как способ перехода СССР от закрытого общества к открытому обществу, на самом деле она бросила вызов анархии и радикализму: положив конец миру и безопасности на постсоветском пространстве, и особенно в Азербайджане. Семена ненависти, дискриминации и экстремизма проросли среди народов, которые жили в братстве на протяжении 70 лет. С 1988 года 50000 турок-месхетинцев и 250000 турок-азербайджанцев были насильно выселены из своих домов, убиты, сожжены и разграблены. «Перестройка» разрушила жизни женщин, нанесла тяжелые социальные и психологические травмы будущим поколениям. Неудачная деятельность Горбачева не только разрушила страну, но и разрушила поколения, обезглавила семьи, сделала женщин несчастными и больными, разрушила детские мечты и чаяния. Среди женщин, чьи жизни были разрушены в результате «Перестройки», была собственная жена Горбачева - самая близкая его сторонница Раиса Горбачева.

Духовный голод людей приводит к более серьезным последствиям, чем материальные лишения. Правительства и государства должны уделять пристальное внимание правам матери и женщины. Общества, в которых они расстроены, их права нарушаются, а их лица не улыбаются, являются источником социально-психологических проблем. В этом случае очень сложно вырастить здоровое поколение. Для возрождения общества необходимо ожидать баланса между пониманием целей и задач, верховенством закона и социальной справедливостью. Мирные условия, защита национальных и моральных ценностей в семье и структурах управления, единство законов и обязанностей - главные факторы, регулирующие отношение к женщинам.

### 1.GİRİŞ

Azərbaycanda milli-mənəvi dəyərlərə hörmət hissi ilə yanaşı vətəndaş əxlaqi təcrübəsində etikanın müasir istiqamətlərinin təsirini görməmək mümkün deyildir. Bu təsir həm zahiri xüsusiyyətlərdə, həm də daxili – mənəvi, sosial-psixoloji, siyasi, hüquqi, təlim-tərbiyə və s. aspektlərdə təzahür edir. Humanizmin imkanlarından bəhrələnərək hedonizmə və amoralizmə yuvarlanan cəmiyyətdə Avropa gender proqramlarının tətbiqinin sosial mühitə yansıması şəraitində, eyni zamanda xarici təcavüz – işğal, münaqişə və müharibə acıları yaşayan

dünyanın digər regionlarında olduğu kimi, Azərbaycanda da qadın olmaq böyük fədakarlıq və əzm tələb edir. Qeyd olunan və olunmayan digər şərtlər altında qadınlıq fitrəti və funksiyasını qorumaq heç də asan olmur. Bu cəhətdən tədqiqat mövzusu ictimai və fərdi aspektlərdən vacib və aktualdır.

Bir tərəfdən müharibə cinayətləri və zorakılıqlar, digər yandan müxtəlif əyləncəli tədbirlərlə cazibəli şəkildə təbliğ olunan yeni dəb və universal normalar cəmiyyətdə əsrlərlə davam edən milli-mənəvi dəyərləri dəyişdirir, dünyaya, insana, təbiətə və insan idrakına fərqli baxışlar formalaşdırır. Bəzən cəmiyyətə yeni, azad, demokratik, ədalətli normaların gətirilməsi kimi təqdim olunan müasir fəlsəfi nəzəriyyələr də bəzən geriliyə, cahilliyə və fanatizmə, hətta faşizmə atılan addımlar kimi bəşəri tərəqqiyə ciddi ziyan vurur.

Dünya əhalisinin savadsız, kitab oxumayan hissəsinin səviyyəsi məlumdur və çox bəsitdir. Problem müasir biliklərin tətbiqinin ictimai nəticələrində, ümumiyyətlə KİV-nin məzmunundadır. Dünya əhalisinin yüksək intellektuallı, dünyanı idarə edən qisminin dünyagörüşünün dünya nizamına və ümumbəşəri dəyərlərə təsiri qadınların həyatında dərin izlər buraxır. Bəşəri başlanğıcın həssas qismi olan qadınlar kişilərə nisbətən qlobal kataklizmləri daha ağrılı keçirir, post müharibə fəsadları zəncirinə qatlanır, hətta suisidə əl atırlar.

Mədəniyyətə istiqamət verən çoxsaylı layihələrin, müsabiqə və təşviqedici tədbirlərin hədəflərinə, müasir bəşəri nailiyyətləri müəyyən edən Nobel Fondunun maraq dairəsinə, “Ginnesin rekordlar kitabı”na baxarkən, eyni zamanda bütün bunlarla bir araya sığmayan münaqişə və müharibələri, soyqırım cinayətlərini, şiddət və zoraklığın artmasını, çağımızın ölçü və meyarlarına, insana və xüsusilə qadınlara münasibətin dəyişməsinə təsirlərini diqqətdən qaçırmaq olmaz.

## 2. ƏSAS HİSSƏ

Sülh üzrə Nobel mükafatına layiq görülmüş Mixail Qorbaçovun “yenidənqurma” siyasəti SSRİ-ni qapalı cəmiyyətdən açıq cəmiyyətə keçirmək üsulu kimi mütərəqqi görünsə də, əslində anarxiyaya, radikalizmə meydan açdı - postsovet məkanında, xüsusilə Azərbaycanda sülh və təhlükəsizliyə son qoydu. 70 il qardaşcasına yaşayan millətlər arasında nifrət, ayrıseçkilik, ekstemizm toxumları cücərdi. Heç bir etik normalara sığmayan Fərqanə və Xocalı hadisələri Qərbin tədqiqat İnstitutlarında hazırlanan müasir siyasi nəzəriyyələrin gerçək mahiyyətini və “təcrübi əhəmiyyətini” üzə çıxardı. Baş verən proseslərdə ən çox zərər görən qadınlar oldular: öldürüldülər, müxtəlif fiziki və mənəvi zorakılıqlara məruz qaldılar, namus və ləyaqətlərinin alçaldılması, yaxınlarınının ölməsi, şikəst olması, övlad itkisi, sürgün, departasiya, qaçqın, köçgün həyatının dözülməz şərtləri ilə üz-üzə qalaraq gələcək nəsillərə də yansıya bilən mənəvi sarsıntılar keçirdilər. Cəmiyyətdəki harmoniyanın pozulması, diskomfort, kataklizmlər hətta dolanışıq problemi olmayan, firavanlıq içində üzən bədnam Mixail Qorbaçovun ailəsindən də yan keçmədi. Qorbaçovun “Yenidənqurma” adlanan dağıdıcı siyasəti (1985-1991), qərəzli mövqeyi və ədalətsiz qərarı yalnız Azərbaycanda deyil, eləcə də onun öz ailəsində, həyat yoldaşı Raisa Qorbaçovanın səhhətində də təsirini göstərdi.

1991-ci ildə Moskvadakı üsyandan sonra insult keçirən, görmə qabiliyyəti zəifləyən R.Qorbaçova, M.Qorbaçovun SSRİ rəhbərliyindən istefasından sonrakı illərdə tədricən sağlamlığını itirmiş, 1999-cu ildə qan xərçəngi xəstəliyindən vəfat etmişdir. Onun ölmədən öncə dediyi və KİV-də yayılan son sözləri olduqca ibrətamizdir: "Yəqin ki, belə bir ciddi xəstəlik çəkib ölməliydim ki, insanlar məni başa düşsünlər" (Горбачева, 2021).

Maraqlıdır ki, R.Qorbaçova haqqında yazdığı nekroloqu akademik Aleksandr Yakovlev “Raisa Qorbaçovanı zaman öldürdü” (Яковлев, 1999, 6) adlandırmışdı. Sual yaranır: – Tarixi şəraiti yaradan faktorlar içərisində Mixail Qorbaçov yox idi? Bəs nə üçün Nobel fondu onu

sülh mükafatına təqdim etmişdi? Raisa Qorbaçovanı "zaman öldürdü", postsovet respublikalarında yüzlərlə sadə vətəndaşın, dinc insanların, xüsusilə qadınların və uşaqların həlak olması ilə nəticələnən qarşıdurmalar, aclıq və yoxsulluğun artması, minlərlə insana qarşı aparılan ayrıseçkilik siyasəti, müsəlman əhalinin izolyasiya edilməsi də zamanın işidirsə, Nobel mükafatı M.S.Qorbaçova niyə verilirdi?

1988-ci ildə Ermənistan SSR-də yaşayan azərbaycanlıların qətl edilərək, yandırılaraq, talan edilərək doğma yurd-yuvasından qovulması M.S.Qorbaçovun göstərişi ilə olmuşdur. Onun dağıdıcı siyasəti nəticəsində 1988-1992-ci illərdə 250 min nəfər azərbaycanlı son nəfərinədək Ermənistan SSR ərazisindəki tarixi yurd-yuvalarından zorla qovulmuş və Azərbaycana pənah gətirmişlər. M.S.Qorbaçovun hakimiyyəti dövründə 50 min Mesxeti türkü Orta Asiyadan (Özbəkistan SSR, Fərqanə) zorla qovulmuş, didərgin salınmış, sonda Gürcüstandakı qədim yurdlarına dönmələri təmin edilmədikləri üçün, Azərbaycana sığınmışlar. "Zaman" firavanlıq içində yaşayan ölkənin birinci ledisinə təsirini göstərməyə bilməzdi, çünki o həyat yoldaşı Mixail Qorbaçovun cinayətlərinin şahidi olmuşdu. "Qadın böyük qüvvə" hesab olunsa da, Raisa Qorbaçova ilahi fitrətinə, qadınlıq, xeyirxahlıq, sülhsevərlik simasına xəyanət etmiş, ərini bu amansızlıqlardan çəkindirməmiş, onun ortağı olmağı qəbul etmişdi...

M.S. Qorbaçovun hakimiyyəti dövründə SSRİ-nin müxtəlif regionlarında təcavüzkarlar cəzalandırılaraq yerlərinə oturdulmadı, qanunsuzluq və anarxiyaya ədalətlə son qoyulmadı. Oğuz türkləri - azərbaycanlıların tarixən məskunlaşdıqları 126 yaşayış məntəqəsi 1988-ci ildə zorla boşaldılaraq Ermənistan SSR idarəçiliyinə verildi. M.S.Qorbaçov azərbaycanlılara qarşı aparteid siyasəti həyata keçirdi: əhalinin ov tüfəngləri, "soyuq silah" adı altında ən primitiv kəsici alətləri müsadirə edildi. Tamamilə silahsız, əli yalın, dinc əhaliyə qarşı XX əsrin ən faciəli hadisələrindən biri – soyqırım törədildi: Azərbaycanın Dağlıq Qarabağ vilayətində 6 min nəfər azərbaycanlının yaşadığı Xocalı şəhəri SSRİ hərbi birləşmələrinin erməni terrorçularına köməyi ilə bir gecədə darmadağın edildi, 613 nəfər dinc sakin vəhşicəsinə, xüsusi qəddarlıqla qətlə yetirildi, 150 nəfər itkin düşdü, 1000 nəfər dinc sakin müxtəlif dərəcədə şikəst oldu, 1275 nəfər - qocalar, qadınlar, uşaqlar əsir aparılaraq dəhşətli təhqirlərə, zülmə və həqarətlərə məruz qaldılar... (Qaçqınlar və məcburi köçgünlər, 2021)

Hadisələr dövlət başçısının idarəçilik fəaliyyətinin əxlaqa, sivil birgəyaşayış qaydalarına, demokratik münasibətlərə, beynəlxalq qanunlara, sülh və təhlükəsizliyə tamamilə zidd olduğunu göstərdi. M.S.Qorbaçovun dövlət idarəçilik normalarına xəyanəti yalnız ictimai həyatda deyil, eyni zamanda şəxsi həyatında acı nəticələr verdi: Qaçqın, köçgün olan, himayəçilərini (atası, qardaşı, əri, oğlu) və övladlarını itirən, alçaldılan, təcavüzə uğrayan, cirkaba batırılan, düşməninə oğul doğmağa məcbur edilən... ölü, əsir qadınların ah-naləsi öldürdü Raisa Qorbaçovanı... Bəli, zalımın da, məzlumun da qəhrini qadın çəkir.

M.S.Qorbaçovun dəstəklədiyi Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ vilayəti, eləcə də ona bitişik olan 7 rayon: Kəlbəcər (1993), Laçın (1992-1993), Qubadlı (1993), Cəbrayıl rayonu (1993), Zəngilan rayonu (1993), Ağdam rayonu (1992-1993) və Füzuli rayonu (1993) ərazisi 30 ilə yaxın işğal altında qaldı. Bu rayonlardan 600 min nəfərdən çox soydaşımız öz daimi yaşayış yerlərindən məhrum olaraq məcburi köçkün olmuş, respublikanın 62 şəhər və rayonunda, 1600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti qalmışlar. Bundan başqa respublikamızın Ermənistanla həmsərhəd olan Naxçıvan Muxtar Respublikasının, Ağcabədi, Ağdam, Ağstafa, Füzuli, Tərtər, Goranboy, Gədəbəy, Qazax və Tovuz rayonlarının sərhədyanı yaşayış məntəqələrindən 100 min nəfərdən çox oğuz türkü - azərbaycanlı öz daimi yaşayış yerini tərk edərək təhlükəsiz ərazilərə köçmüşlər.

M.S.Qorbaçovun "sülh fəaliyyəti" nəticəsində 20 min nəfər azərbaycanlı həlak olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuş, sağ qalanlar isə psixoloji sarsıntılar və maddi-mənəvi əziyyətlər çəkmişlər. Münaqişə dövründə 4852 nəfər

(o cümlədən 54 uşaq, 323 qadın, 410 qoca) azərbaycanlı itkin düşmüş, onlardan 1368 nəfəri (o cümlədən 169 uşaq, 338 qadın, 286 qoca) əsirlikdən azad edilmiş, 783 nəfəri (o cümlədən 18 uşaq, 46 qadın, 69 qoca) isə bu günədək Ermənistanda əsirlikdədir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin məlumatına görə 439 azərbaycanlı əsirlikdə ölmüşdür.

Hadisələrin sağ qalan şahidlərinin, yaralılara xidmət edən həkim və sanitarların hissləri isə heç də həmişə mənəvi iztirabla bitmir, daxili sarsıntıdan yaranan ağır xəstəliklərə çevrilirdi. Onlardan biri Ermənistan SSR, Tumanyan rayonunun (Rus imperiyası tərəfindən işğal olunmuş Azərbaycanın Loru mahalının Allahverdi rayonu) sakini, Xocalı soyqırımı qurbanlarını gözləri ilə görən və onlara ilkin tibbi yardım göstərən I Qarabağ müharibəsi veteranı, Azərbaycan Silahlı Qüvvələrinin I dərəcəli tibb xidməti kapitanı, "Azərbaycan bayrağı" ordenli Məleykə Əhmədova (Səma) (1957-2006) Bakı şəhərində xərçəng xəstəliyindən vəfat etmiş, prezident İlham Əliyevin sərəncamına əsasən, İkinci Fəxri xiyabanda dəfn edilmişdir.

Məleykənin həyatı və böyüyüb boya-başa çatdığı ailəsinin faciəsi M.Qorbaçovun dağıdıcı siyasətinin bir zərrəsidir. Azərbaycanlıların əzəli yurdlarından qovulması prosesində M. Əhmədovanın üç qardaşı şəhid olmuş, atası Əhməd kişi isə üçüncü şəhid oğlu - Kamandarın ölümünə dözməyərək həyatla vidalaşmışdır. 1988-ci ildə azərbaycanlılar Ermənistandan qovularkən Məleykənin qardaşı Yaqub Əhmədov ermənilər tərəfindən qətlə yetirilmiş, kiçik qardaşı 16 yaşlı Səyyad Əhmədov isə ermənilər tərəfindən suda boğularaq öldürülmüşdür. Məleykənin böyük qardaşı Kamandar Əhmədov I Qarabağ müharibəsində şəhid olmuş, Bakıda Şəhidlər xiyabanında torpağa tapşırılmışdır. Bakı küçələrindən biri Kamandar Əhmədovun adını daşıyır.

Məleykə Səmanın vətən dərdi, ailə faciəsi, qəlb ağrısı, xatirə acısı yazdığı şeirlərlə bir azca xəfifləsə də, bitmədi, zərif qəhramanın cismində sağalmaz yaraya çevrildi və 49 yaşında nəfəsini kəsdi...

O, “Xocalı şərqisi” kitabında 1988-1994 illər Qarabağ faciəsinin dərinliyinə gedərək Azərbaycanın 1813-1994-cü illərdə ümumilikdə 80 % torpağının işğal edildiyini tarixi faktlar və rəqəmlərlə göstərmişdi (Səma, 2006, s. 12-14). Kitabda müəllifin iştirak etdiyi müharibə ilə bağlı 40-a yaxın şeiri və müharibə dəhşətlərini əks etdirən fotoşəkillər toplanmışdır. Kitab gələcək nəsillərin qan yaddaşı üçün əyani sübut, yaşanılmış həqiqətdir.

İlkin məlumatlara görə, Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarda Azərbaycana məxsus milli mədəniyyət ocaqlarına erməni təcavüzkarların vurduqları ziyan, dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələri olan maddi-mənəvi sərvətlərin talan və məhv edilməsi azərbaycanlılara dəyən mənəvi-psixoloji zərbə ilə yanaşı Azərbaycan iqtisadiyyatına 60 milyard ABŞ dollarından çox həcmdə maddi ziyan dəymişdir (Qaçqınlar və məcburi köçgünlər, 2021).

30 il işğal altında qalan ölkənin qadınlarının çəkdikləri məşəqqətləri bir tədqiqat işinə sığdırmaq qeyri mümkündür. Digər tərəfdən KİV-də bu barədə şahid ifadələrindən xarici mediya nümayəndələrinin foto, video çəkilişlərinə və məqalələrinə qədər minlərlə fakt sadalamaq olar. Ona görə də tədqiqat materialına fəlsəfi yanaşılmış, rəqəmlərdən daha çox hadisə və proseslərin səbəblərinin açılması kontekstində qadına münasibətin şərhinə daha çox diqqət ayrılmışdır.

Cəmiyyət əxlaqının dəyişməsinə dövlət idarəçiliyinin təsiri olduğu kimi, dövlət idarəçiliyinə də filosof və siyasətçilərin təsiri vardır. Çinli Daysaku İkeda “Həyatı seç” (Избери жизнь, 2007). kitabında cəmiyyətə hansı mesajı verir? “Olum, ya ölüm?” dilemması qarşısında ləyaqəti alçaldılmış, mənəviyyatı, qüruru, dəyərləri alınmış canın qorunması insanlığa nə verə bilər? Mənəvi dəyərlərindən uzaqlaşmış insanın - robotdan fərqi yalnız aldığı nəfəsdədir.

Dünyanı bürümüş "Koronavirus" epidemiyaından sonra nəfəsin özü də problemə çevrilmişdir. Həyatın bütün sahələrinə daxil olan robotlar müasir insanın idarəetmə funksiyasını asanlaşdıra bilir, lakin onun psixologiyasını bərpa edə, mənəvi xüsusiyyətlərini qoruya bilirmi? Bəlkə mənəviyyatın gərəksiz olduğunu düşünür müasir beyin mərkəzləri? Əks halda ağlasığmazlıqların reklamı və təşviqini sağlam məntiqlə qavramaq çətindir.

Ədəbiyyat üzrə Nobel mükafatı almış yazar Svetlana Aleksieviç "Müharibə qadın simalı deyil" əsərində insanların "ölümün nə olduğunu bilmədən həyat üçün öldüklərindən" (Aleksiyeviç, 2015, s. 150) yazır. Həyat üçün ölmək? Bu ifadə dəlili olmayan sofistika, terminlərin əsasız identifikasiyasıdır. Həyat və ölüm, xeyir və şər kimi əks məzmunlu etik anlayışların identifikasiyası şüurda xaos yaratmağa xidmət edir. Doğrudanmı düşünən insanla nəsil artırmaq üçün axına qarşı üzən balıqlar arasında fərq yoxdur? Varsa, hansı daha təbiidir?

Əxlaq, mənəviyyat və dəyərlərin əhəmyyətsizliyini təbliğ edən müasir nihilizm insanlığa nə vəd edir? Allahın kitabları və peyğəmbərləri vasitəsilə bəşəriyyətə nəql etdiyi hikmət – həqiqət artıq daşınmaz hala gəldimi? Nədir bitib-tükənməyən narahatlıqların, dünyaya hakimlik iddialarının səbəbi?

Çay yuxarı, axına qarşı üzən balıq insandan fərqli olsa belə, fitrətinə, funksiyasına sadiqdir. O, varlığını, təbiətdəki yerini, yaradılış funksiyasını davam etdirmək üçün mübarizə aparır. Bəs insanın mübarizəsi nə üçündür? İnsanın öz mövcudluğunu saxlaması və funksiyasını davam etdirməsi nəyə əsaslanır? Əslində insan da, balıq da həyatı və ya ölümü seçmir, sadəcə yaradılış funksiyasını icra edirlər: hər bir situasiyada var olmağa, kainatın ona aid hissəsini tamamlamağa çalışırlar. Qadınlar da tamamlayıcıdırlar: fəaliyyətdə vəhdət üçün çatışmayan, əskik qalan hikmətin tamamlayıcısı. Onları yaşadan bütünləşmə funksiyasıdır. Bu fitri funksiyasından kənar qadın - qadın deyildir.

Yaxından tanıdığım bir qız vardı. Həkimlər səhhəti ilə əlaqədar övlad sahibi ola bilməyəcəyini söyləmişdilər. Lakin o məhz ana olmaq arzusu ilə ailə qurdu. Çünki qadınlıq fitrətini və funksiyasını dərk edən biri idi, yarımçıq olmaq istəmirdi, tamlığa, bütövlüyə can atırdı. Öz funksiyasını daşıyan, Allahın onun üçün hazırladığı nemətlərlə yaşayan qadın, ana olmaq istəyirdi. O, ölümü seçməmişdi, seçə bilməzdi: hədəfində bütövlük, tamlıq, insanlıq idealları vardı; o ölümü seçsəydi hər şey başlamamış bitərdi. Artıq həyatda olduğu üçün həyatı seçmək haqqında da düşünmürdü... Onun bütün varlığı dəyərlər uğruna səfərbər olmuşdu. Postmodern dünyaya, cəmiyyətə yeni münasibətlər paketi təklif edən gender proqramlarına, demoqrafik fəlsəfi nəzəriyyələrə rəğmən, qəlbinin səsinə qulaq asmış, fitrətinə uyğun davranmış, ilahi funksiyasının icrasını canından üstün tutmuşdu... O həyatı bahasına, yabançı tendensiyaya qarşı durdu, fitrətini, iradə azadlığını qorudu: insan kimi gəldiyi dünyadan insan kimi köçdü... Maraqlıdır ki, ölümündən bir-neçə il sonra yuxuma (3 yaşlı oğlu ilə) girmişdi. Mən ondan soruşdum: "Bu oğlan uşağı kimindir? O isə gülərək mənə cavab verdi: Kimin olacaq, əlbəttə mənim, 3 yaşındadır" Təəccüb və həyəcandan oyandım, onun ölüm tarixini yadıma saldım. Belə çıxırdı ki, o, öldüyü gün həsrətində olduğu oğluna qovuşmuşdu. Elmin təsdiq və ya inkar edə bilmədiyi, lakin müqəddəs mətnlərdə xəbər verilən Allahın vədi yerinə yetmişdi. Bəs postmodern dünya insandan aldıqlarının yerinə nə qoyur?

Daysaku İkedanın irəli sürdüyü ideyaya uyğun - fikrən hər hansı bir tarixi prosesin əksini fərz edək. Tutaq ki, ikinci dünya müharibəsi illərində - ekstremal şəraitdə insanların çoxu faşizmə qarşı çıxmayaydı, ədalət və xəyanət, ləyaqət və rəzalət haqqında düşünmədən, nəyin bahasına olursa olsun həyatı – yaşamağı üstün tutsaydılar, nəticə necə olardı? Dünya faşizmin köləsinə çevrilməzdimi?! İnsanlığı itirərək həyatı seçmək kimə lazımdır?

Keçən əsrin sonları və XX əsrin əvvəllərində dünyanın müxtəlif ərazilərində tətbiq olunan tibbi, siyasi, hərbi, sosial-psixoloji təcrübələr məhz "həyatı seçmək" nəzəriyyəsinin təsiri altında etik dəyərlərə etinasızlıqdan qaynaqlanır. "Beşikdən qəbrə qədər öyrənilən bilik"

insanlığı zülmlə barışmağa sövq etdirmək üçün deyildir. Atom bombası faciəsindən sonra bütün gücünü və iradəsini həyatın, insanlığın bərpasına yönəldən Yaponiya, faşizmə qalib gələn Sovetlər birliyi, Amerika ilə müharibədən qalib çıxan Vyetnamın ayaq üstə qala bilmək dirənişinin əsasındakı dəyərlər gözdən düşməməli, əksinə qorunub gələcək nəsillərə ötürülməlidir.

Tədqiqatlardan məlum olur ki, cəmiyyəti formalaşdıran müasir nəzəriyyələrin əksər müəllifləri, siyasətçi və idarəçilər əsasən kişilərdir. Deməli, həyatın davamı üçün, insanlığın mütərəqqi inkişafı üçün ictimai məsuliyyət onların üzərindədir. Akademik A.Yakovlev qadınları (məsələn: Raisa Qorbaçovanı) zamanın və ya mühitin öldürdüyünü (Яковлев, 1999) iddia etməzdən əvvəl bir qədər düşünsə, qadınlara münasibətdə kişilərin məsuliyyətini çox asan anlaya bilər. Cəmiyyətin idarəçiliyi əsasən kişi qisminin üzərindədirsə, fərdlərin tərbiyəsi ilə əsasən qadınlar məşğul olur. Qadınlar şəxsiyyət yetişdirmə funksiyalarını dərk etsələr, nəzəriyyənin reallaşma subyektləri rolunda çıxış etdiklərini bilərlər. Tarixdən yaxşı tanıdığımız Fironun arvadı Asiya, İsa peyğəmbərin anası Məryəm, Muhamməd peyğəmbərin birinci arvadı Xədicə, Muhamməd peyğəmbərin üçüncü arvadı Aişə, Muhamməd peyğəmbərin qızı Fatimə kimi qadınlar öz mənəviyyatları və davranışları ilə qadınlıq örnəyidirlər. Bəşəriyyəti “olduran” və ya “öldürən” onların öz yaradılış fitrətlərinə sadiqlik səviyyələridir. Müasir qadınların anlayış və seçimləri yeni nəslin inkişafına təsir edir. Yeni nəsildə gələcəyin idarəçiləri yetişir. İnsanın dünyaya gəlməzdən öncə 9 ay ana bətnində qalma müddəti də nəzərə alınarsa, qadının ictimai funksiyası və cəmiyyətdəki rolununun əhəmiyyəti dünyada heçnə ilə müqayisə oluna bilməz.

## SONUÇLAR VE ÖNERİLER

Sülh üzrə Nobel mükafatına layiq görülmüş Mixail Qorbaçovun “Yenidənqurma” siyasəti SSRİ-ni qapalı cəmiyyətdən açıq cəmiyyətə keçirmək üsulu kimi mütərəqqi görünsə də, əslində anarxiyaya, radikalizmə meydan açdı - postsovet məkanında, xüsusilə Azərbaycanda sülh və təhlükəsizliyə son qoydu. 70 il qardaşcasına yaşayan millətlər arasında nifrət, ayrıseçkilik, ekstemizm toxumları cücərdi. 50 min mesxeti türkü, 250 min azərbaycan türkü zorla evlərindən çıxarıldı, qətl edilərək, yandırılaraq, talan edilərək qədim yurd-yuvasından qovuldu. “Yenidənqurma” qadınların həyatını məhv etdi, gələcək nəsillərə yansıyan ağır, sosial-psixoloji travmalar yaratdı. M.S.Qorbaçovun uğursuz fəaliyyəti yalnız ölkəni dağıtmaqla bitmədi, nəsilləri pərən-pərən saldı, ailələri başsız qoydu, qadınları bədbəxt və xəstə etdi, uşaqların xəyallarını öldürdü. “Yenidənqurma” nəticəsində əsir, əlil həyatı yaşamağa məcbur olan, gənc yaşda dul qalan qadınlar adi insan haqlarından kənar qaldılar... M.S.Qorbaçovun Nobel mükafatına layiq olmayan dağıdıcı siyasəti türk-müsəlman qadınları ilə yanaşı tatar Raisa Qorbaçova – Mixail Qorbaçovun həyat yoldaşı və ən yaxın həmdəmi üçün də ağır imtahana çevrildi və həyatına son qoydu. Azərbaycan şairi Hüseyn Cavid demişdir:

“Qadın gülərsə, şu issız mühitimiz güləcək,

Sürüklənən bəşəriyyət qadınla yüksələcək.”

İnsanların mənəvi aclığı maddi təminatsızlıqdan daha ağır nəticələrə gətirib çıxarır. Hökümət və dövlətlər ana, qadın haqqlarına diqqətlə yanaşmalıdırlar. Onların üzüldüyü, hüquqlarının tapdalandığı, üzlərinin gülmədiyi cəmiyyətlər sosial-psixoloji problemlər qaynağıdır. Bu durumda sağlam nəsil yetişdirmək çox çətindir. Cəmiyyətin dirçəlişi məqsəd və vəzifələrin dərki, qanunların icrası və sosial ədalətlə düz mütənasibdir. İdarəçilik strukturlarında qanunlar və vəzifə məsuliyyəti vəhdət təşkil etməlidir ki, bütövlükdə cəmiyyət sağalsın və qadınların da üzü gülsün.

## KAYNAKLAR

1. Я должна была заболеть, чтобы меня поняли”, - говорила Горбачева https://ria.ru/20090920/185670182.html 11.02.2021
2. Александр Ъ-Яковлев. Раису Горбачеву убило время. Газета "Коммерсантъ" №171, от 21.09.1999.
3. Qaçqınlar və məcburi köçgünlər http://supremecourt.gov.az/static/view/178, 11.02.2021
4. Səma Məleykə. Xocalı şərqisi. Bakı: “Adiloğlu” nəşriyyatı, 2006, 188 səh.
5. Избери жизнь. Диалог Арнольда Дж. Тойнби и Дайсаку Икеды /
6. Перевод с английского Ю.М. Канцура. Сверка и дополнения по изданию на японском яз. Экуко Сайто-Бэнц. - М.: Изд-во Моск. ун-та, 2007. - 448 с
7. Aleksiyeviç Svetlana.Müharibə qadın simalı deyil. Roman. “Xan”, Bakı: 2015, 456 s.
8. Александр Ъ-Яковлев. Раису Горбачеву убило время. Газета "Коммерсантъ" №171, от 21.09.1999.